# QEDİM SUBAR TÜRKLERİ

Dr. Firidun Ağasıoğlu CELİLOV*

Dünyanın qedim medeniyet merkezlerinden sayılan Güney ve Quzéy Azerbaycan torpaqları ve bu erazilerde yaşayan ehali haqqındakı melumatlar son 5 min illik dövrü ehate étse de, Azerbaycan tarixçileri bugüne qeder hemin melumatların araşdırılmasına bigane qalmışlar. Xüsusile, éradan qabaq III-II minillikeri ehate éden yazılı qaynaqlar Azerbaycan alimleri terefinden öyrenilmemiş, yalnız bu barede xarici tedqiqatçıların fikirlerinden behrelenmişler. Bunun başlıca sebebi Azerbaycan tarixine aid qedim menbelerin şumér, akkad, élam kassi ve hurri dillerinde olması ve bizde bu senedleri oxuya bilen mütexessislerin qıtlığıdır. Halbuki, qedim ölü diller üzre mütexessis hazırlamaq üçün 5-10 il kifayet idi. Bu baxımdan, Azerbaycanın qedim tarixini azerbaycanlı alimin tedqiq étmesi üçün xarici mütexessisleri devet étmekle, BDU Şerqşünaslıq fakültesinde qedim sami dilleri ve şumér, élam, hurri-urartu dilleri üzre ixtisas bölmelerinin açılması ve buradakı telebelerin müvafiq ölkelerin univérsitélerine ézam olunması meselesi Azerbaycan élmi üçün texiresalınmaz problémlerdendir. Bu kiçik haşiyeni ona göre vacib saydıq ki, müsteqiliyini qazanmış, lakin séparatçı étnik münaqişe neticesinde torpaqları zebt olunmuş şekilde qarşıdakı III minilliye daxil olmaqda olan xalqımız qedim çağlardan günümüze qeder öz tarixi kéçmişi haqqında heqiqetleri bilmelidir.

Qedim Azerbaycan erazilerinde xüsusile, Urmu gölü hövzesinde é.e. III-II minillerde yaşayan arattalılar, subarlar, turuklar (türkler), lulu ve qutiler haqqında az da olsa, şumér ve akkad dilli menbelerde melumatlar vardır. Adı çekilen tayfalar hemin erazilerde zaman-zaman dövlet qurmuş, qonşu ölkelerle münasmibetde olmuşlar. Azerbaycan xalqının soykökünü teşkil éden bu tayfaların hamısından bir meqalede söhbet açmaq mümkün deyil, burada yalnız subar boyları (tayfaları) haqqında bezi melumatlara toxunacağıq. Sonralar bütöv Avrasiyaya yayılan subarlar tekce Azerbaycan xalqının déyil, türk xalqlarından bir néçesinin de formallaşmasında iştirak étmişler. Subarlar haqqındakı melumatlar 5 min il arası kesilmeden davam édir. Melum olur ki, onların bir qismi é.e. II. minilin ortalarında Sibire qeder gétmiş, iki min il sonra subarsoylu boylar yéniden Xezerin üstünden Ata yurda qayıtmışlar.

---

* Asya Üniversitesi Öğretim Üyesi, Bakü.

(indi hemin bölgede, Cudi dağdan doğuda Ulu-dere adı var), Ferat çayının orta axarında olan Kumux, Kuman ve Decle çayından Urmu gölüne teref erazide yérleşen diger Kuman bölgelerinde de görmek olur, lakin bunlar helelik mövzumuz xaricindedir. Subarla qedim Azerbaycan arasında olan bir néçe bölgede başçıların Kaka (Qağa), Ata Dede adlanması da diqqeti çekir ve nezere alaq ki, bütün bunlar 3 min il evvel yazılmış senedlerde eks olunmuşdur.

Subar beyliyinin çoxlu şeherleri olsa da, indiki İlicenin yaxınlığında yüksek dağda yérleşen ve "dağın başında dumana benzeyen" Upum ve indiki Kulpa yaxın Kulmeri ölkenin merkezi şeherleri hésab olunurdu. Asur çarı Subar ölkesini işğal édende 21 şeherin subarca adını bir defeye deyişib "Asur, düşmeni mehv ét" kimi seslenen asurca adlar qoymuşdu. Asur tecavüzü néce de rusların "Vladi-Kafkaz","Vladi-Vostok" tipli advérme xaraktérine ve érmeni-hayların batı Azerbaycan yér adlarını haylaşdırmasına uyğun gelir, bu tarixi analogiyadan ibret dersi öyrenseydik, éyni tarixi defelerle yaşamazdıq.

Tapınağı subarların Kuman bölgesinde olan ve Mitanni dövründe géniş yayılan Téşub adlı tanrıya hurriler de tapınmışlar. Sonralar bura gelen urartular da ona (Téyşébia) secde étmişler. Subarın son beyi Nig-Téşubun iki oğlu ve asurlara cesusluq éden qardaşı Baq-Téşub) adında olan Téşub sözü hemin tanrı ile bağlıdır. Ümumiyyetle, qedim İkiçayarası ve Azerbaycan torpaqlarında işlenen Uğur, Turan, Tarxan, Apa, Bağa, Nene, Baba ve sair tanrı adları maraqlı tedqiqat mövzusudur.

Niq-Téşubun vaxtında Asur çarı Asarxaddon édir ki, Asur ve Urartu qaçqınları Subarda rahat sığınacaq tapır, Subar beyi onlara torpaq saheleri vérir. Her iki ölkenin çarı defelerle Subar beyinden qaçqınları qaytarmasını xahiş étse de, bey onları qaytarmır. Bunu behane éden Asarxaddon, eslinde, asurların uzun zaman işğal étmek istediyi Subar beyliyine hücum édir.

Böyük ordu ile 673-ün qışında başlanan bu asur-subar müharibesi 3-4 ay davam etdi ve 672-de Subar beyliyinin darmadağın édilmesi ile başa çatdı. Asarxaddon sağ qalan subarların çoxunu başqa asur eyaletlerine köçürdü, boşalan şeher ve kendlere başqa étnik bölgelerden ehali getirib yérleşdirdi, 21 şeherin adını deyişdi; "boşalmış subar küçelerinde artıq ne şenlik vardı, ne de neğme oxuyan, boş xarabalarda tülküler, kaftarlar yuva qurdu".

Niq-Téşubu öldüren Asur çarı onun ordusundan salamat qalan ve süvari qvardiya, ceng arabası, qalxan tutan, oxçu ve mühafize qvardiyasından esir düşen bölükleri sıraya düzüb, baxış kéçirdi ve onları asur ordusuna qatdı. Urartudan qaçan qaçqınları da Urartu çarına qaytardı. Étnik simasını deyiştirdiyi Subar ölkesine iki canişinliye ayırıb, Asur eyaletine çévirdi. Bélelikle, kumux, kuman, qaşqay, arimén, soğan, salur, urum ve diger subar boylarının vaxtaşırı kömeyi ile iki esrden aprtıq Asur-Urartu kimi iki tecavüzkar dövletin arasında yaşaya bilen Subar beyliyi 673-de tarix sehnesinden silindi. Qedim Azerbaycana, oradan da Doğuya çekilib dilini mühafize éden subarların töremeleri ise subar, suvar, sibir, sabir adlarıyla müxtelif yérlerde günümüze qeder yaşadı.




**M.ö. IV-II minillərdə Ön Asiyada türk etnosunun yayılma dairəsi və qonşuları**

IV minil
III-II minil
I minil (Proto-azərbaycan boyları)

Şəkil 1.


Fərat (Murad-su)
Xəzər (Qazan) gölü
URARTU
URUME
Muş
Upum
ARME
Kulmeri
VAN
Bitlis
SUBAR
XUBUŞKİA
Turxu
Penzu
XABXI
Diyarbakır
Dəclə
ULLUBA
ASUR
Ulu-dərə
KUMAN
SUBAR
Beyliyi
(M.Ö. IX-VII. yy.)